# Soydaşlarımızın hüquqları bərpa olunacaq

**Tarixi mənbələr göstərir ki, vaxtilə Qərbi Azərbaycan ərazilərində ermənilərin sayı yetərincə idi. Onlar axşam-sabah müsəlmanların qapılarında bir parça çörək üçün işləyir, özlərini "yazıq", "məzlum" millət kimi qələmə verməyə çalışırdılar. Haylara ağsaqqallıq edənlər isə keşişlər idi.**

1828-ci ildə Martuni və Basarkeçər rayonlarının ərazilərinə 8557 nəfər erməni köçürülüb. Həmin dövrdə 430 min hektar ərazi ermənilərin əlinə keçib. Ermənistanın rəsmi dövlət mətbuatı yazır ki, 14 mindən çox ailə köçürülüb və Zaqafqaziyada yerləşdirilib. Sirakda, Talində, Abaranda, Bəyazetdən köçürülənlər Kəvərdə, Dərəçiçəkdə, Sürməlidə yerləşdiriliblər.



Bütün bu faktlar təsdiq edir ki, indiki Ermənistan ərazisinin köklü əhalisi türklər olub. İstər-istəməz B.İsaxanyanın bir fikri yada düşür: "Antik dövrü ermənilərin əsl vətəni olan böyük Ermənistan kiçik Asiyada, yəni Rusiyadan kənarda yerləşirdi".

Ermənilərin tarixi saxtakarlıqlarını ifşa edən yüzlərlə sənəd var ki, onları üzə çıxarıb cəmiyyətə çatdırmaq lazımdır. Bugünkü Ermənistan torpaqlarında ermənilər tarix boyu çox cüzi şəkildə yaşamışlar. Azlıq təşkil etmələrinə baxmayaraq, çox təəssüf ki, saxta təbliğatları ilə dünya ictimaiyyətinin böyük hissəsini həmin ərazilərin erməni torpağı olmasına inandıra bilmişlər. Həmişə böyük iddialarla yaşayan erməni vandalları güclülərə söykənərək törətdikləri təxribatları, terror əməliyyatlarını, xəyanətləri bəzən başqalarının adına yazmış, bəzən də öz bəd əməllərini qəhrəmanlıq kimi səciyyələndirmişlər.

Rusiyanın işğalına məruz qalmış Qərbi Azərbaycan torpaqlarına ermənilərin yerləşdirilməsi əsasən iki istiqamətdə aparılıb. Ermənilərin sayı artırılmaqla azərbaycanlıların sayı azaldılıb. Bunun üçün azərbaycanlı əhali sıxışdırılıb. XIX əsrin rus tarixçisi Sergey Mixayloviç Solovyovun 1989-cu ildə Moskvada çapdan çıxmış "Rusiya üzrə mühazirə və hekayələr" kitabında yazılıb: "Rusiya ətrafındakı işğal olunmuş ərazilərdə möhkəmlənmək üçün Pyotra görə ən yaxşı vasitə buralarda xristian əhalisinin çoxaldılması, müsəlmanların isə azaldılması hesab olunurdu".

1887-ci ildə "Hnçaq" Komitəsi məşhur idi. Qafqaz ermənisi Avetis Nazaryanın Arkadı Maro ilə İsveçrədə yaratdığı bu komitə guya Karl Marksın prinsipləri əsasında qurulmuşdur. 1890-cı ildə isə Qafqazda "Daşnaksütyun" adı altında yeni cəmiyyət yaradıldı.

XIX əsrin sonunda İrəvan quberniyasında Rusiya imperiyası əhalinin siyahıya alınmasını keçirmişdir. 1897-ci ildə burada 313178 nəfər azərbaycanlı yaşamışdır. Hələ onda indiki Ermənistanın bir çox mahalları buraya daxil deyildi. 1890-cı ilin sonlarında "Daşnaksütyun" partiyası yaradıldıqdan sonra ermənilərin torpaq iddiası daha da artdı. Partiya öz fəaliyyətində millətçiliyi əsas meyar kimi qəbul edərək Rusiyanın və Avropa dövlətlərinin köməyindən istifadə etməklə qarşısına Ermənistan torpaqlarını genişləndirməyi məqsəd qoydu. Daşnaklar İrəvan quberniyasında, eləcə də ona yaxın mahallardan Azərbaycan türklərini çıxarmaq və yeni torpaqlar əldə etməklə "böyük Ermənistan" xülyasını genişləndirməyə başladılar. Onlar hər hansı bir müharibəyə başlamazdan əvvəl müəyyən təxribatlar törədir, terrorçuluqla məşğul olurdular. Bundan sonra bütün dünyaya car çəkirdilər ki, ey xristian qardaşlar, qoymayın türklər bizi qırdılar. Əslində ermənilər Türkiyədə çox sərbəst yaşayır, heç bir dini ayrıseçkilik hiss etmirdilər.

1905-ci il inqilabının geniş vüsət aldığı bir vaxtda çarizm Qafqazda inqilabı boğmaq məqsədilə xalqlar arasında düşmənçilik toxumu səpirdi. Öz işğalçılıq siyasətini həyata keçirmək üçün ədavətin qızışdırılması ermənilərin ürəyindən idi. Ermənilər onsuz da qırğın törətməyə hazırlıq görür və Qafqazda müstəqil dövlət yaratmağa can atırdılar. Belə düşünürdülər ki, müharibə yolu ilə kim qalib gələrsə, Qafqaz müstəqil olduqda orada həmin millət hakim olacaqdır.

1905-ci ildə erməni şovinistlər Qərbi Azərbaycandakı soydaşlarımızı sıxışdırmağa başladılar, 118 kəndə hücumlar təşkil olundu, bu işdə rus ordusu da haylara "kömək əlini" uzatdı. Azərbaycanlılar zülm və işgəncə ilə qətlə yetirildilər, əmlakları müsadirə olundu.

Rusiyadan hərbi və maddi yardım alan, təpədən dırnağadək silahlanmış ermənilər heç bir hazırlığı olmayan, silahsız azərbaycanlıların üzərinə hücuma keçib öz "uğurları" barədə keşişlərə raport verdilər. Zəngəzur, Vedibasar, Zəngibasar, Dərəçiçək, Göyçə, Qaraqoyunlu, Pəmbək mahallarında soydaşlarımız məhv edildilər.

1905-ci ildə İrəvanda müsəlmanların az yaşadıqları məhəlləyə ermənilər hücum edərək günahsız adamları öldürməyə başlayıblar. Salnaməçi qeyd edir ki, müsəlmanlar az olsalar da, ermənilərə qarşı böyük müqavimət göstərmiş və mərdliklə vuruşmuşlar. Qeyri-bərabər döyüşdə 40 erməni, 2 müsəlman öldürülmüşdü. Ermənilər kimsəsiz qadın və uşaqları amansızlıqla məhv etmişlər. Bunu eşidən şəhərin ətraf kəndlərindəki Azərbaycan türkləri ermənilərin üstünə yerimiş, aslan kimi qəzəblənmiş insanlar erməniləri məhv etmişlər.

Qafqaz canişini işə qarışmış, ermənilərə qarşı başlanan hücum qısa vaxtda dayandırılmışdır.

1918-1920-ci illərdə ermənilər Qərbi Azərbaycanda soydaşlarımıza qarşı analoqu olmayan qırğınlar törətmişlər. Bunun nəticəsində azərbaycanlılar ata-baba yurdlarından ayrılmış, İran və Türkiyəyə üz tutmuşlar.

Ermənilərin faşist ideologiyası nəticəsində Qərbi azərbaycanlıların 150 min nəfəri 1948-1953-cü illərdə "könüllülük" prinsipi əsasında zorla Azərbaycanın Kür-Araz ovalığına köçürülmüşdür.

1988-ci ildə Qərbi azərbaycanlıların hüquqları yenidən pozulmuş, onlar Mixail Qorbaçov və ermənipərəst qüvvələrin xəyanəti ucbatından doğma yurd yerlərini məcburən tərk etmişlər.

Bu gün Qərbi Azərbaycan İcmasında soydaşlarımızın doğma torpaqlarına qaytarılması üçün məqsədyönlü iş aparılır. Əsas hədəf Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşdırılmasıdır.

**İsfəndiyar ƏZİZOV,**
**Bakı şəhər sakini, təqaüdçü.**

Respublika .- 2025.- 6 iyun (№ 117).- S.7.